BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2014

UOT 342.07; 342.7-054.57

# ABŞ-DA HÜQUQİ YARDIM ALMAQ HÜQUQUNUN ƏSAS XÜSUSİYYƏTLƏRİ

**ŞƏRQİYYƏ XƏLİLOVA**
***Bakı Dövlət Universiteti***
***xalilova.sarqiya@mail.ru***

*Məqalədə ABŞ-da hüquqi yardım almaq hüququnun əsas xüsusiyyətləri nəzərdən keçirilir. Göstərilir ki, konstitusion səviyyədə hüquqi yardım almaq hüququ ilk dəfə olaraq ABŞ Konstitusiyasına edilmiş 6-cı düzəlişdə təsbit olunmuşdur. ABŞ-da bu hüququn məzmunu məhkəmə prosesi gedişində, eləcə də cinayət təqibi təhlükəsi zamanı vəkil xidmətindən istifadə etmək kimi başa düşülür. Müəllif belə nəticəyə gəlir ki, ABŞ hüquq sisteminin kifayət qədər uzunmüddətli bir inkişaf prosesi keçməsi burada hüquqi yardım almaq hüququnun həm cinayət, həm də mülki hüquqi işlərdə müəyyən məsələlər üzrə daha konkret formada işlənib hazırlanmasına gətirib çıxarmışdır.*

**Açar sözlər:** hüquqi yardım almaq hüququ, federal, məhkəmə prosesi, vəkillik fəaliyyəti, ştat, qanunvericilik, aztəminatlı, ödənişsiz, ailə hüququ, cinayət işləri, immiqrant

Hüquqi yardım almaq hüququ ilk növbədə, cinayət prosesində insan hüquqlarının etibarlı müdafiəsini təmin etməyə yönələn əsas konstitusion təminatlardan biridir. Bu hüquq ədalətli məhkəmə araşdırması hüququnun elementlərindən biri kimi çıxış edir. Konstitusion səviyyədə hüquqi yardım almaq hüququ ilk dəfə olaraq ABŞ-ın 1787-ci il Konstitusiyasına 1791-ci ildə edilmiş 6-cı düzəlişdə təsbit olunmuşdur. Dünyanın əksər ölkələrində, o cümlədən ABŞ-da bu hüququn məzmunu məhkəmə prosesi gedişində (xüsusilə də cinayət mühakimə icraatında), eləcə də cinayət təqibi təhlükəsi zamanı vəkil xidmətindən istifadə etmək kimi başa düşülür. Bununla yanaşı, müxtəlif ştatların qanunvericiliyində təminatsız və aztəminatlı şəxslər üçün hüquqi yardım almaq hüququ ödənişsiz olaraq təqdim edilir. Ümumiyyətlə, ABŞ-da hüquqi yardım fəaliyyəti və onun quruluşu heç bir zaman federal və ya ştatlar səviyyəsində qanunvericiliklə tənzimlənməmişdir (4, 253-254). Burada hüquqi yardımın təqdim olunması qanunvericiliklə birbaşa tənzimlənməsinin əvəzinə onun məhkəmə nəzarətində olması institutu mövcuddur. Bu isə vəkilliyin müstəqil özünüidarəetmə institutu olaraq qalmasına xidmət edir (6, 17-25).

ABŞ-da hüquqi yardım almaq hüququnun inkişafı məhkəmə qərarları əsasında daha da inkişaf etmişdir. Belə ki, ABŞ Ali Məhkəməsinin bir sıra vacib qərarları ştat məhkəmələrində cinayət törətməkdə ittiham edilən aztəminatlı və imkansız şəxslərin hüquqi yardım almaq hüququnun vacibliyi qeyd olunmuşdur. 1963-cü ildən etibarən hüquqi yardım almaq hüququnun daha geniş şəkildə ABŞ Konstitusiyasının 5-ci və 6-cı düzəlişlərinə əsasən federal məhkəmələrdə də təmin edilməsinə başlanıldı (10). Ali Məhkəmənin 1967-ci ildə çıxardığı qərar əsasında hüquqi yardım almaq hüququ yuvenal məhkəmə icraatına cəlb olunan azyaşlılar üçün də təmin edilməyə başlandı (13). 1972-ci ildən etibarən isə hüquqi yardım almaq hüququ daha geniş şəkildə təfsir edilərək, bütün potensial azadlıqdan məhrumedilmə hallarında bu hüququn təmin edilməsi nəzərdə tutuldu (7).

ABŞ-da hüquqi yardım almaq hüququnun inkişafında ictimai əsaslarla könüllü vəkillik fəaliyyətinin də mühüm rolu olmuşdur. XX əsrin 50-ci illərindən etibarən ali təhsil müəssisələrinin hüquq fakültələrində tələbələrə vəkillik fəaliyyəti ilə məşğul olmaq imkanı verən xüsusi praktiki kursların açılmasına başlanıldı. Bu kurslar tələbələrə nəzəri kurslarda əldə etdikləri biliklərin praktikada tətbiq etmək və paralel olaraq əhalinin hüquqi xidmətləri ödəyə bilməyən təbəqəsinə ixtisaslı hüquqi yardım təqdim etmək imkanı verirdi. Həmin dövrdə gələcək hüquqşünasların hazırlanması yalnız mövcud məhkəmə praktikasının – məhkəmə presedentlərinin öyrənilməsinə əsaslanırdı. Şübhəsiz ki, bu metod tələbələrin güclü nəzəri bazaya malik olmasına imkan verirdi, lakin onların əldə etdikləri biliklərin tətbiqi təcrübəsinin reallaşmasına, yəni prosessual fəaliyyət bacarıqlarına yiyələnmələrinə imkan vermirdi. Bununla əlaqədar olaraq, 70-ci illərdən etibarən ABŞ-da hüquq klinikaları yüksək populyarlıq qazandı. ABŞ-da hüquqi yardım islahatları "Hüquqi yardım proqramları" ilə başladı. Hazırda ölkə daxilində həm cinayət, həm də mülki işlərdə hüquqi yardım xərclərini ödəyə bilməyən şəxslər üçün hüquqi yardım strukturu yaradılmışdır (Legal Services Corporation). Hər bir ştatda hüquqi yardım kontorları yaradılır ki, həmin kontorlarda da ictimai əsaslarda müəyyən sayda işlər aparan, müəyyən saatlar hüdudlarında ödənişsiz *pro bono* hüquqi məsləhətlər təqdim edən vəkillər fəaliyyət göstərirlər. Eyni zamanda, federal, ştat və dairə məhkəmələri hüquqi yardım xidmətlərini ödəmək imkanı olmayan təqsirləndirilən şəxsləri müdafiə edəcək vəkillərin fəaliyyətinin ödənilməsi üçün büdcədən maliyyələşən müvafiq fondlar yaradırlar. ABŞ-da aztəminatlı vətəndaşlara hüquqi yardım müxtəlif proqramlar çərçivəsində və maliyyə mənbələri əsasında təqdim edilir. Bu baxımdan xüsusilə Payyut rayonu Mərkəzinin Hüquq Klinikası, Hüquqşünas-könüllülər Kontoru, Dairə məhkəməsinin özünəyardım Mərkəzi, ticarət mərkəzlərində hüquq klinikaları, hüquq məktəbləri nəzdində hüquq klinikaları misal göstərilə bilər.

Hazırda ABŞ-da hüquqi yardımın faktiki üç əsas forması mövcuddur:

1. Hüquqi yardım mərkəzləri timsalında dövlət tərəfindən maliyyələşdirilən hüquqi yardım. Əgər cinayət prosesində ittiham edilən olunan şəxs özünə vəkil tutmaq imkanına malik deyildirsə, bu halda məhkəmə həmin şəxs

üçün vəkil təyin edir və onun xidmətini ödəyir. Eyni zamanda, ABŞ hökuməti cinayət işlərindən başqa digər proseslər üçün də hüquqi yardım hüququnun təmin edilməsini nəzərdə tutur. Lakin hüquqi yardımın təmin olunduğu belə proseslərə münasibətdə də bəzi məhdudiyyətlər vardır. Məsələn, xüsusilə ziddiyyətli məsələlər olduğu üçün abort etdirmə, qeyri-qanuni miqrasiya, məhkumların hüquqlarına dair işlərdə dövlət tərəfindən maliyyələşdirilən hüquqi yardım təqdim edilə bilməz.

Vəkillərin təyinat əsasında müəyyən olunması formasına əsasən, yerli səviyyələrdə rast gəlinir. Belə ki, belə idarələr ictimai müdafiəçilərlə təmin olunmaq üçün kifayət etmir. Bu zaman yerli rəhbərlik müdafiəyə ehtiyacı olan şəxslərin hüquqlarının müdafiəsinin təmin edilməsinə hazır olan özəl fəaliyyət göstərən vəkillərin siyahısını müəyyən edir. Konkret işə münasibətdə vəkilin müəyyən olunması ya hakim tərəfindən təyinat vasitəsilə, ya da hakim tərəfindən müvafiq siyahıdan vəkilin seçilməsi yolu ilə həyata keçirilir. Hakim tərəfindən vəkilin siyahı üzrə seçilməsi praktikası xüsusilə ixtisaslaşma tələb edən işlər zamanı üstünlük təşkil edir. Belə ki, sözügedən siyahıda vəkillərin adları ilə yanaşı onların ixtisaslaşdığı sahə də qeyd olunur. Vəkilin göstərdiyi xidmətlərə görə haqq məhkəmə vasitəsilə federal büdcədən və ya ştatın büdcəsindən həyata keçirilir. Bu zaman vəkil öz araşdırmasının həyata keçirilməsi və ya ekspertlər dəvət edilməsi ilə əlaqədar xərclərlə bağlı əvvəlcədən məhkəmədən razılıq almalıdır (3, 219-220).

2. Federal maliyyələşdirmə təqdim olunmadığı halda, vətəndaş cəmiyyəti hüquqi yardım almaq hüququnun təmin edilməsində mühüm rol oynayır. XX əsrin 70-ci illərindən etibarən ABŞ-da vəkilliyin yeni bir forması – cəmiyyətin maraqlarını qoruyan vəkil kontorları (pro bono publico law firms) meydana gəldi. Bu kontorlar ayrı-ayrı müştərilərin işlərini aparır, dövlətə və ya korporasiyalara qarşı ətraf mühitin və əhalinin sağlamlığının qorunması (məsələn, ətraf mühiti çirkləndirən cəmiyyətlərə qarşı, yaxud atom elektrik stansiyalarının tikilməsi əleyhinə olan) və böyük insan qruplarının (istehlakçılar, siyasi xadimlər, seçicilər, vergi ödəyiciləri və s.) maraqlarının müdafiəsi ilə bağlı iddialar qaldırırlar. ABŞ-da belə hüquq mühafizə təşkilatlarının əsas vəzifəsi qismində ictimai maraqların müdafiəsi çıxış edir. Bu təşkilatlar qanunvericilik islahatlarının aparılmasında əsas hərəkətverici qüvvə hesab olunur, ictimai yanaşma tərzini dəyişdirir və müvafiq hüquqi yardım xidmətləri göstərirlər. Praktika göstərir ki, ABŞ-da ən çox rezonans doğuran məhkəmə işlərinin bir çoxu məhz *pro bono* (əvəzsiz, əvəzi ödənilməyən) xidmətlərin nəticəsində baş vermişdir. Məsələn, *Braun Topik şəhərinin Təhsil Departamentinə qarşı* iş ABŞ-da seqreqasiyaya son qoyulmuşdur. Bu iş Qırmızıdərili Əhalinin Tərəqqisinə Yardım Milli Assosiasiyası tərəfindən *pro bono* əsasda aparılmışdır.

Hüquq mühafizə təşkilatları cinayət işləri üzrə təqsirləndirilən əksər aztəminatlı şəxslərə hüquqi yardım göstərilməsi ilə məşğuldur. Qeyd edilməlidir ki, bu qurumlar əhalinin aztəminatlı hissəsinə digər növ işlər üzrə hüquqi yardım göstərən hüquqi yardım büroları ilə eyni deyil. İctimai müdafiəçi

qurumları yerli hakimiyyət orqanları tərəfindən yaradılır və bu orqanlar ştatdan ştata fərqlənə bilər. Bunlar şəhər şurası, bələdiyyə, mer və sairə olmaqla həmin qurumun fəaliyyətini əlaqələndirir, amma eyni zamanda onun gündəlik fəaliyyətinə müdaxilə etmir. Bir sıra yurisdiksiyalarda ictimai müdafiəçi qurumları yerli hakimiyyət orqanları strukturuna daxil olur və vəkil-əməkdaşlar dövlət qulluqçusu hesab edilir.

Yuxarıdakılardan əlavə olaraq qeyd edilməlidir ki, ABŞ-da federal büdcə vasitəsilə maliyyələşdirilən aztəminatlı ailələrə hüquqi yardım proqramları və qurumları mövcuddur. Bu qurum və proqramlar 1960-cı illərdə hökumətin yoxsulluqla mübarizə siyasəti çərçivəsində meydana çıxmışdır.

3. Hüquq mühafizə təşkilatlarının özü üçün vəkil təyin etmək imkanına malik olmayan bütün insanlara hüquqi yardım təqdim etməsi qeyri-mümkündür. Məhz bu boşluğun doldurulması üçün ölkə daxilində bütün hüquqşünaslar vaxtlarının bir hissəsini ödənişsiz hüquqi yardım fəaliyyətinə həsr edirlər. Məhz bu fəaliyyət *pro bono* xidmət hesab edilir. Dövlət hüquqi yardım mərkəzlərində çalışan hüquqşünaslar əmək haqqı əsasında fəaliyyət göstərirlər, hüquq mühafizə təşkilatları isə xeyriyyə ödənişləri və qrantlar hesabına fəaliyyət göstərirlər. Ayrı-ayrı hüquqşünaslar isə hər hansı bir təzminat olmadan hüquqi yardım xidmətləri təqdim edirlər. Hüquqşünaslar arasında bu ənənə Amerika Vəkillər Assosiasiyasının (American Bar Association – ABA) 1969-cu ildə öz üzvləri üçün aztəminatlı insanlara ödənişsiz hüquqi yardımın göstərilməsi barədə Rəhbər Qaydalar işləyib hazırlamaqla başlamışdır. Könüllü üzvlərdən ibarət olmaqla 1878-ci ildə yaradılan ABA ABŞ-da mövcud olan ən iri ümummilli hüquqşünaslar assosiasiyası hesab edilir (3, 217; 2, 595). Müasir hüquq ədəbiyyatında ABA bir sıra müəlliflər tərəfindən hüquqşünaslar deyil, məhz vəkillər assosiasiyası adlandırılır (5, 96). Ş.İ.Əliyev qeyd edir ki, bunun əsas səbəbi ABŞ-da mövcud olan "hüquqşünas" anlayışı və onun funksiyaları əksər ölkələrdə olan "vəkil" anlayışı və onun funksiyaları ilə üst-üstə düşməsidir (1, 58).

1983-cü ildə ABA belə bir qayda müəyyən etdi ki, "vəkil mütləq ödənişsiz hüquqi yardım göstərməlidir". 1993-cü ildə isə ABA tərəfindən ödənişsiz hüquqi yardımın göstərilməsi ilə bağlı daha dəqiq norma qəbul edildi: "Hər bir vəkil il ərzində ən azı 50 saatlıq ödənişsiz hüquqi yardım xidmətləri (*pro bono* əsasda) göstərməlidir ki, bunların da böyük hissəsi məhdud maliyyə imkanlarına malik şəxslərə təqdim olunmalıdır". 2000-ci cildə isə bu norma daha da möhkəmləndirildi: "hər bir vəkil ödənişli hüquqi yardım xidmətlərini ödəyə bilməyən şəxslər üçün ödənişsiz hüquqi yardım göstərmək üzrə peşə öhdəliyi daşıyır". Beləliklə, *pro bono* xidmətləri xeyriyyəçilikdən kənarlaşdırılıb, peşə məsuliyyəti anlayışına çevrilmiş oldu.

Göstərilənlərlə yanaşı, ABŞ-da ayrı-ayrı iri şəhərlərdə şəhər hakimiyyəti tərəfindən müqavilə əsasında pulsuz hüquqi yardım göstərən təşkilatlar yaradılır. Onlar özəl qeyri-kommersiya korporasiyası statusuna malikdir. Belə korporasiyalar, həmçinin, ştatın və ya bələdiyyənin büdcəsi ilə maliyyələşdirilə,

eyni zamanda xeyriyyə məqsədləri ilə təqdim edilən vəsaitləri də qəbul edə bilər. Dövlət tərəfindən maliyyələşmələrinə baxmayaraq belə qurum və korporasiyalar hakimiyyətdən asılı deyil. İctimai müdafiəçilər qurumunda 1-dən 100-ə qədər vəkil çalışa bilər. Belə qurumların əksəriyyətində vəkillərin bütün vaxtlarını aztəminatlı şəxslərin müdafiəsinə sərf etmələri üçün onlara digər işlərdə çalışması qadağan edilir.

ABŞ hüquq sistemini təşkil edən federal qanunvericiliyin və ştatlar tərəfindən qəbul edilən qanunvericiliyin müstəqil inkişafı burada mülki hüququn da müxtəlif hüquqi problemlərinin, o cümlədən hüquqi yardım almaq hüququnun fərqli şəkildə müəyyən edilməsinə gətirib çıxarmışdır. Son onilliklərdə hüquqi yardım almaq hüququ barədə müxtəlif ştatlar daxilində qanunlar və məhkəmə qərarları verilmişdir. Belə qanunlara az əhəmiyyət verilsə də, praktikada yerinə yetirilməyə hələ onlar qəbul olunmazdan əvvəl başlanılmışdır. Xüsusilə də mülki hüququn müxtəlif məsələləri üzrə (ailə hüququ, məcburi məhkəmə icraatı və tibbi müayinə) hüquqi yardım almaq hüququ barədə kifayət qədər çoxlu sayda belə qanunlar qəbul edilmişdir. Bu qanunlar vəkillərin səlahiyyətləri və onların fəaliyyətinin səmərəliliyi baxımından geniş müxtəlifliyə malikdir.

Ümumiyyətlə, mülki hüquqi yardımın təqdim olunması hansı ştatda hansı mülki iş üçün hüquqi yardım almaq hüququnun mövcud olması baxımından bir-birindən fərqlənir. Hazırda tətbiq olunan mülki işlər üzrə hüquqi yardımın təqdim olunması metodları ümumi maraqlara cavab verən hüquq firmaları və ictimai hüquq klinikalarını əhatə edir ki, bunlar da müxtəlif xeyriyyə cəmiyyətləri, özəl donorlar, federal hökumət, bəzi yerli və ştat hökumət fondları hesabına maliyyələşdirilirlər. əlavə olaraq, bəzi ştatlar vəkillər qarşısında *pro bono* (əvəzsiz, əvəzi ödənilməyən) hüquqi yardım həyata keçirmək öhdəliyi qoyurlar (16).

Hüquqi yardım almaq hüququ barədə ştatlar qanunları müxtəlif məsələlərin həllinə yönəlir. Onların bəziləri bir və ya bir neçə icraat növündə konstitusion hüquqi yardım almaq hüququnu nəzərdə tutmaqla, məhkəmə qərarlarının realizəsi məsələləri əhatə edir. Məsələn, əhəmiyyətlilik dərəcəsi əsasında mülki və cinayət icraatında məhkəmə tərəfindən hüquq müdafiəçisi ilə təmin olunmaq hüququ barədə Nyu-Cersi Qanunu (14). İkinci qrup qanunlar konkret qrup şəxslərin (məsələn, öz valideynlərindən ayrı düşən hərbi qulluqçu və hindu uşaqlar) hüquq müdafiəçisi ilə təmin edilməsi barədə qəbul edilmiş federal qanunların realizəsinə istiqamətlənir. Üçüncü qrup qanunlar isə qanunverici orqanların "hüquq müdafiəçisi ilə təmin etmənin yaxşı sosial siyasət olması" yanaşmaları əsasında qəbul edilmişdir.

Əksər ştatların hüquqi yardım almaq hüququ barədə qanunvericiliyi üç əsas kateqoriyaya bölünür: ailə hüququ məsələləri, məcburi məhkəmə icraatı və tibbi müayinə. Federal qanunvericilik uşaqlarla qəddar davranışın və rəftarın qarşısının alınması üzrə maliyyələşdirilən ştatların üzərinə məhkəmədə sui-istifadə və etinasızlıqla qarşılaşan uşaqlara nümayəndə təyin etmək öhdəliyi

qoyur (9). Beləliklə, qəddar rəftar və etinasız yanaşma hallarında uşaqların hüquq müdafiəçisi, yaxud qanuni nümayəndə ilə təmin olunmasını nəzərdə tutan normalar, demək olar ki, bütün ştatlarda mövcuddur (8). Bəzi ştatlarda valideynlik hüququndan məhrumedilmə ilə bağlı məhkəmə icraatında, eləcə də ailə hüququ ilə bağlı onlara qarşı etinasız və qərəzli məhkəmə prosesi gedişində valideynlər üçün hüquqi yardım almaq hüququ müəyyən edən qanunlar qəbul edilmişdir (Alyaska, İllinoys, Massaçusets, Nyu York).

Federal qanunvericilik ştatların üzərinə eyni zamanda qərəzli münasibətə, etinasızlığa məruz qalmış, eləcə də valideynlik hüququndan məhrumedilmə ilə bağlı hindu uşaqların valideynlərinin məhkəmə icraatı gedişində hüquq müdafiəçisinə malik olmaq hüququ təmin etmək öhdəliyini qoyur (11). Bir sıra ştatlar müvafiq federal normanı öz qanunvericiliklərinə daxil etmişlər (Konnektikut, Luiziana, Massaçusets). Ailə hüququnda bir və ya bir neçə subyekt üçün hüquqi yardım almaq hüququnun nəzərdə tutulduğu digər kateqoriya məsələlərə isə bunları aid etmək olar: ailədaxili zorakılıq məsələləri; boşanma və nikahın ləğvi; valideynlik hüquqlarının ləğvi, o cümlədən övladlığa götürmə; atalığın müəyyən edilməsi ilə bağlı məhkəmə icraatı; övladlığa götürən ailədə uşağın hüquqi vəziyyəti ilə bağlı məhkəmə icraatı (12, 246).

Bir sıra ştatların qanunvericiliyi ruhi xəstəliyə, narkotik və alkoqol aludəçiliyinə görə müəyyən qrup şəxslərin, eləcə də karantində yerləşdirilən xəstələrin fəaliyyət qabiliyyətsizliyini müəyyən etməklə, onlar üçün hüquqi yardım almaq hüququnu nəzərdə tutur (Alyaska, Delaver). Hüquqi yardım almaq hüququ barədə ştatların qanunvericiliyinin müəyyən etdiyi məsələlərdən biri də tibbi müayinədən istifadə, yaxud tibbi müayinədən azad olunmadır. Məsələn, bir sıra ştatların qanunvericiliyinə əsasən, abort zamanı valideynlərinin razılığını almaq üçün məhkəməyə müraciət etmiş azyaşlıların hüquqi yardım almaq hüququ təmin edilməlidir. Qərbi Virciniya ştatında məcburi tibbi müayinəyə məruz qalan şəxslərin hüquqi yardım almaq hüququ ilə bağlı xüsusi qanun qəbul edilmişdir. Konnektikut ştatında isə hüquqi yardım almaq hüququ məcburi peyvənd olunan şəxslər üçün nəzərdə tutulmuşdur. Göstərilən məsələlərdən başqa, hüquqi yardım almaq hüququnun nəzərdə tutulduğu bir sıra digər mülki məsələlər barədə ştat qanunvericiliyi mövcuddur:

- Mülki həbs və azadlıqdan məhrumetmə. Şimali Karolinada borca görə azadlıqdan məhrum olunan və mülki həbsə məruz qalan şəxslər üçün hüquqi yardım almaq hüququ təmin edilir.
- Merilend ştatında iddia qaldırmaq imkanı olmayan şəxslər üçün hüquqi yardım almaq hüququ nəzərdə tutulur.
- Xüsusi azyaşlı immiqrant statusu almaq üçün petisiya. Florida ştatının 2005-ci ildə qəbul edilən Qanununa əsasən, zorakılığa, laqeydliyə məruz qalmış, eləcə də valideynləri tərəfindən atılmış qeyri-ABŞ vətəndaşlarına məhkəmənin qərarı əsasında xüsusi azyaşlı immiqrant statusu verilməklə, onlar üçün hüquqi yardım almaq hüququ təmin edilə bilər.
- İndiana ştatında psixi sağlamlığı barədə məlumatların açıqlanmasına görə müraciət etmiş şəxslər üçün hüquqi yardım almaq hüququ nəzərdə tutulur.

- Hərbi qulluqçulara mülki yardım haqqında Federal Qanuna əsasən, bütün ştatlar mülki məhkəmə icraatında cavabdeh qismində çıxış edən və məhkəmə prosesində iştirak etməyən hərbi qulluqçuların hüquqi yardım almaq hüququnu təmin etməlidirlər (15). Bir sıra ştatlar bu normanı öz daxili qanunvericiliklərinə də daxil etmişlər.

Eyni zamanda, qeyd etmək lazımdır ki, ştatlar daxilində qəbul edilmiş bəzi normativ aktlar əsasında ailə hüququnun bəzi məsələlərində xüsusi kateqoriya şəxslərin hüquqi yardım almaq hüququndan məhrum edilməsi nəzərdə tutulur. Bununla belə, müvafiq normaların qəbul olunduğu, demək olar ki, bütün ştatlarda məhkəmələr tərəfindən konstitusiyaya zidd hesab edilmişdir. Belə ki, hüquqi yardım almaq hüququndan məhrumetmə həm məhkəmələrin səlahiyyətlərinə müdaxilə baxımdan, həm də insanların konstitusion hüquqlarının pozulması baxımından qiymətləndirilmişdir (12, 248).

Hazırda məhz vətəndaş cəmiyyəti təşkilatları ABŞ-da hüquqi xidmətlərin böyük əksəriyyətini təqdim edirlər. Belə ki, ABŞ-ın 10 ən böyük vəkil kontorları – Baker & McKenzie; Clifford Chance; Latham & Watkins; Allen & Overy; Kirkland & Ellis; Skadden, Arps, Slate, Meagher & Flom; Linklasters; Freshfields Bruckhaus Deringer; Jones Day; Sidley Austin – özlərinin illik fəaliyyətləri barədə ABA qarşısında hesabat verirlər. Beləliklə, ABŞ-da hüquqi yardım almaq hüququnun əsas məsələlərini nəzərdən keçirərkən, belə nəticəyə gəlmək olar ki, ödənişsiz hüquqi yardım almaq hüququnun təqdim olunmasında vəkillərin müstəqilliyi müəyyən olunmuşdur. Bununla belə, bu müstəqillik hüquq müdafiəçilərinin il ərzində müəyyən minimal saat çərçivəsində ödənişsiz hüquqi yardım təqdim etməsi kimi peşə öhdəliyi ilə bərabər mövcud olur. ABŞ ödənişsiz hüquqi yardım almaq hüququnu konstitusion səviyyədə təsbit edən ilk dövlət olmaqla, bu hüququn universal insan hüquqları kontekstində inkişaf etdirilməsində mühüm rol oynamışdır.

ABŞ hüquq sisteminin kifayət qədər uzunmüddətli bir inkişaf prosesi keçməsi burada hüquqi yardım almaq hüququnun həm cinayət, həm də mülki hüquqi işlərdə müəyyən məsələlər üzrə daha konkret formada işlənib hazırlanmasına gətirib çıxarmışdır. Bu baxımdan ABŞ-da mövcud olan qanunvericilik praktikasının öyrənilməsi digər dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının müvafiq sahələrdə qanunvericiliyinin təkmilləşdirilməsi baxımından səmərəli hesab edilə bilər.

## ƏDƏBİYYAT


1. Əliyev Ş.İ. Vəkillik hüququ. Dərs vəsaiti. Bakı: 2012, 380 s.
2. Vəkilllik üzrə praktikum. Bakı: GİSO industry, 2008.
3. Адвокатская деятельность: Учебно-практическое пособие / Под общ. ред. канд. юр. наук В.Н. Буробина. Изд. 2-е, перераб. и допол. М.: ИКФ «ЭКМОС», 2003.
4. Пульянов В.З. Юристы США: организация и формы профессиональной деятельности, с.253-254 // ВНИИ советского законодательства. Проблемы совершенствования советского законодательства. Труды, Выпуск 1, М.: 1974.
5. Саломатин А.Ю. История юридической профессии в США (конец XVIII-XIX вв.) // Государство и право, 2004, № 2.
6. Щуковская О.М. О системе регулирования частной юридической практики в США //

Юридический мир, 1999, № 10.
7. *Argensinger v. Hamlin,* 407 U.S. 25 (1972).
8. Astra Outley, Representation for Children and Parents in Dependency Proceedings 2–3, http://pewfostercare.org/research/docs/Representation.pdf
9. Child Abuse Prevention and Treatment Act, 42 U.S.C. § 5106a(b)(2)(A)(xiii).
10. *Gideon v. Wainwright,* 372 U.S. 335 (1963).
11. Indian Child Welfare Act, 25 U.S.C. § 1912.
12. Laura K. Abel and Max Rettig. State Statutes Providing for a Right to Counsel in Civil Cases. Clearinghouse Review Journal of Poverty Law and Policy. July–August 2006.
13. *Re Gault* 381 U.S. 1 (1967).
14. *Rodriguez v. Rosenblatt*, 277 A.2d 216, 223 (N.J. 1971) (Clearinghouse No. 7684); *Crist v. New Jersey Division of Youth & Family Services*, 343 A.2d 815, 816 (N.J. Super. Ct. App. Div. 1975) (Clearinghouse No. 12,695).
15. Servicemembers Civil Relief Act, 50 U.S.C. app. § 521(b) (2).
16. http://jpo.wrlc.org/bitstream/handle/11204/3622/United%20States.pdf?sequence=1

## ОСНОВНЫЕ ОСОБЕННОСТИ ПРАВА НА ЮРИДИЧЕСКУЮ ПОМОЩЬ В США

**ШАРГИЙЯ ХАЛИЛОВА**

### РЕЗЮМЕ

В статье рассматриваются особенности права на юридическую помощь в США. Отмечается, что на конституционном уровне право на юридическую помощь впервые было закреплено в 6-й поправке к Конституции США. В США под данным правом понимается использование услуг адвоката в судопроизводстве, а также при наличии угрозы уголовного преследования. Автор приходит к выводу о том, что достаточно долгосрочный процесс развития правовой системы США способствовал более конкретной разработке права на юридическую помощь по определенным вопросам как в уголовных, так и гражданских делах.

**Ключевые слова:** право на юридическую помощь, федеральный, судебный процесс, адвокатская деятельность, штат, законодательство, малообеспеченный, без оплаты, семейное право, уголовные дела, иммигрант

## CHARACTERISTICS OF THE RIGHT TO LEGAL AID IN THE UNITED STATES

**SHARGIYYA KHALILOVA**

### SUMMARY

The article discusses the features of the right to legal aid in the United States. It is noted that in the constitutional level of the right to legal aid was first enshrined in the 6th Amendment to the US Constitution. In the US, under the content of this right means the use of a lawyer in the proceedings, as well as there is a threat of criminal prosecution. The author concludes that rather long-term process of the legal system of the United States contributed to the development of more specific right to legal assistance on certain issues both in criminal and civil cases.

**Key words:** the right to legal assistance, the federal, the process, advocacy, state, legislation, poor, free, family law, criminal cases, an immigrant.